**UOT 82**

# X.R.ULUTÜRK POEZİYASINDA CƏNUBİ AZƏRBAYCAN MÖVZUSU

**Sevinc KƏRİMZADƏ***

Məqalə redaksiyaya daxil olmuşdur: 10 fevral 2025; çapa qəbul edilmişdir: 2 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 10th of February, 2025; accepted: 2th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *Cənubi Azərbaycan, X.R.Ulutürk, poeziya, Vətən, istiqlal, şair, azərbaycançılıq, Araz, Təbriz, Şəhriyar, folklor, poetik*

## Giriş

Müstəqillik dövrü Azərbaycan poeziyasının inkişaf tendensiyası cəmiyyətdə baş verən ictimai-siyasi, sosial problemlər, müxtəlif ədəbi cərəyanların aktuallaşması, janrdaxili hibridləşmələr və s. ilə bağlı olaraq zəngin bir sistem daxilində istiqamət götürmüşdür. Xüsusilə, XX əsrin 80-90-cı illərindən etibarən Azərbaycanın mürəkkəb və ziddiyyətli bir tarixə qədəm qoyması, ictimai mühitdə baş verən hadisələrin çoxşaxəliliyi – ölkədə milli azadlıq hərəkatının güclənməsi, imperiya qüvvələrinə etiraz, erməni havadarlarının qəsd və talanları, 20 Yanvar faciəsi və s. insan şəxsiyyətinin parçalanmasına səbəb olmaqla nəticədə sənətə, ədəbiyyata daha ciddi, siyasi-fəlsəfi mövzular gətirir. Bədii ədəbiyyatda, xüsusilə lirikada, dünya ümumbəşəri dərk etmək mərhələsinə qədəm qoyur, sənətin estetik görüşləri mənəvi gözəllikdən çox, milli təəssübkeşlik, mübarizə ruhuna köklənir. Məhz bu dövrdə XX əsrin sosial və inqilabi sarsıntılarını ədəbiyyatda aktuallaşdıran istiqlal şairlərimiz arasında Xəlil Rza Ulutürk ayrıca yer tutur. Azərbaycan şeirinin görkəmli simalarından olan Xəlil Rza Ulutürkün lirikası Vətən, Vətənə məhəbbət, sevgi, onu qorumaq, sevmək, bu torpaq üçün mübarizə aparmaq istəyindən yaranmış zəngin sənət nümunəsidir. Şairin yaradıcılığı bütövlükdə həyat, zaman, insan konsepsiyasının açılışı üzərində qurulmaqla, bu sistemdə bir çox məsələlər əlaqəli şəkildə şeiriyyətdə fəlsəfi-bədii məna qazanır. Sözsüz ki, ədəbiyyatımızda azadlıq şairi kimi tanınan X.R.Ulutürkün əsas yaradıcılıq hədəfi Vətən və vətəndaşlıq borcu mövzusu olmuşdur. Yaradıcılığının ilk illərindən başlayaraq, mərhələli şəkildə ədəbi prosesə qoşulan şair 1970, 1980, xüsusilə 1990-cı illərdə yazdığı şeirlərində Güney Azərbaycan həqiqətlərini ayrıca diqqət mərkəzində saxlamışdır. Qeyd edək ki, hələ 1950-1960-cı illərdə ədəbiyyatımızda qismən də olsa müəyyən çərçivədə yaranan Cənubi Azərbaycanla mədəni əlaqələrin qurulması sonrakı mərhələdə, müstəqilliyə qədərki dövrdə özünün yetkin formasına çatmamış, müəyyən mənada davamlı xarakter daşımamışdır. Lakin müstəqillik illərinin ədəbiyyatında bu məsələ cəmiyyətdə gedən ictimai-siyasi proseslər, hadisələrlə bağlı olaraq yenidən gündəmə gətirilmiş və aktuallıq qazanmışdır. O.Sarıvəlli (*"Dəvə karvanı"*), M.Araz (*"Haçadağ"*, *"Yenə Arazı gördüm"* və s.), B.Vahabzadə (*"Neytral zona"*, *"İki yol"*), S.Rüstəmxanlı (*"Tarixi yaradanlar"*) və s. şairlərimizin yaradıcılığı bu baxımdan seçilir. Azərbaycanı böyük türk birliyində bütöv görmək istəyən X.Rza Güney mövzusunda yazdığı şeirlərində

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* kerimzadesevinc23@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.273**

məhz Araz həsrəti, Təbriz dərdini yaradıcılığının başlıca mövzusuna çevirmişdir. Məlumdur ki, Azərbaycanın tarixən Güneyli–Quzeyli ərazi bölgüsü xalqın məişətində, keçmişində möhkəmlənməklə "o taylı", "bu taylı" Vətənin taleyində xalq sənətindən başlayaraq müasir ədəbiyyatımıza qədər yaranan əsərlərin mövzu-məzmununda yer almaqla, həmişə aktuallığını qoruyub saxlamışdır.

## 1. X.R.Ulutürkün lirikasında Təbriz və Araz ağrısı

Yaradıcı sənətkar, vətənpərvər insan olan X.R.Ulutürk Azərbaycan həqiqətlərini məhz Araz, Təbriz ağrıları ilə sənətə gətirmişdir. Onun lirikasının semantik dominantları, məzmun-konseptual məlumatı müəllif niyyətində doğma torpaq, yurd sevgisində üstünlük təşkil edir. X.R.Ulutürk lirikasında Təbriz həsrəti müxtəlif üsullarla təqdim edilir. İlk variantda Təbriz tarixdir, türkün məskənidir, bir-birindən ayrı düşən el-obanın ümid yeri, fədailər, ərənlər məskənidir. Onun "Qayalar şahid olsun", "Ehkamçılara qarşı", "Göylərdən gələn kişi", "Sənin cavabın", "Mində bir", "Şəhriyarım" və s. şeirlərində xalqın qan yaddaşında Vətən həsrəti Təbriz, Araz dərdində poetik məna qazanır. Şair bu ayrılıq, ağrıları ilk olaraq Arazın obrazlaşdırılması üzərində aparır. *"Gözəgörünməyən yaralarına Arazı məlhəm istəyən"* (6, s.131) şair bu ağrını özünün şah damarı sayır. Şair *"Mində bir"* adlı şeirində xəstəliyin, ümidsizliyin içində özündə dəyanət, güc, qüvvət tapır. Azərbaycanı sonsuz ümman, özünü ona sahil qayası bilən (6, s.21) müəllif nəfəsini, damarında axan qanı da Arazla bağlayır:

*Endi, qalxdı nəfəstutan gah aşağı, gah yuxarı,*
*Mən bilmədim, kirəclənib, ya sağdı qan damarları.*
*Ancaq gözəl bilirəm ki, dəmirdəndir sınırlarım,*
*Milyon qəlbə qan daşıyır "Araz" adlı şah damarım/* (6, s.22)

Şair Vətənini "görünməz yarasından Araz uzunluğunda qan axan" (6, s.84) sarğısı açılmayan bir dərd kimi götürür. X.R.Ulutürkün Araz dərdli şeirlərində Vətən sevgisi, yurda bağlılığı, mübarizəsi vətəndaş mövqeyinin dərk olunmasından başlayaraq mübarizə meydanlarına qədər davam edir. "X.R.Ulutürkün humanizmi və vətənpərvərliyi Azərbaycanın bütövlüyündən başlanğıc götürüb. "Məndən başlanır Vətən" (1983), "Gözəl yaşamaqdan əl çəkmək olmaz" (1984), "Dözümlü ol, dəli könlüm" (1984) əsərlərində başlıca humanist keyfiyyət insanın öz içinə baxışı, onu dərk edib qiymətləndirməsi, cəsurluq, cəsarət, dəyanət, ləyaqət, məslək, amal, səxavət və qətiyyəti özündə yaşatmasıdır. Bütün bunlar dərk ediləndə insanın mənəvi mübarizəsi doğulur. Mənəvi mübarizə kişilik və qeyrətdir, xasiyyətlə, insanla, vətəndaşla Vətən arasında kəsilməz, qırılmaz bağlardır" (3, s.6).

Müəllifin Cənubi Azərbaycanla bağlı düşüncələrinin ikinci istiqaməti Savalanın məcazlaşması, obrazlılıq qazanaraq şeirdə Vətəni əvəzləməsidir. Şair Araz çayının subyekt-konseptual müstəvisində kədər, müəyyən mənada ümidsizlik kimi hisslərə qapılsa da, Savalanın ucalığında o daha da mübarizləşib, inqilabçı Vətən övladına çevrilir. Şair üçün Araz dərdi, Vətən dərdi həm də Savalan dağının simvolik tərənnümündə şeirə gətirilir:

*Yer üzündə ən şirin bir xəyala dalanda, Böyük, Azad, Müstəqil...*
*Savalanın köksünə bu sözlər yazılarsa,*
*Söz həqiqət olarsa, Onda dincələrəm mən,*
*Ölsəm belə dünyaya yenidən gələrəm mən.* (6, s.38)

Ümumiyyətlə, X.R.Ulutürk şeiri mübarizə, döyüş və qalibiyyətdir. Təsadüfi deyildir ki, şair şeirlərinin birində "daim əli qələmliyəm, yaraqlıyam" söyləməklə öz şair amalı, şair mövqeyini əks etdirir.

X.R.Ulutürk şeirində Arazın simvollaşdırılması onun şəxsləndirilməsində bütöv Azərbaycanın dərdinə çevrilir. Şairin hələ 1959-cu ildə yazdığı "Qatar gedir Araz boyu" şeirində Araz "qanlı qılıncı döyüş çölünə düşmüş yaralı bahadur", "yatağı qəfəs olan yaralanmış pələng" "dərd içində dərd kimi" təsvir edilir (6, s.364). Arazın şairin lirikasında simvollaşdırılması ilə yanaşı, Təbriz də eyni şəkildə nisgil, mübarizə, ayrılıq mövzularında başlıca obraza çevrilmişdir. X.R.Ulutürk şeirlərində bu mənada Təbriz Vətən, maddi və mənəvi irsimizin qoruyucusu, milli mücahidlərin uyuduğu müqəddəs məkan, tariximizin yaddaşı olaraq rəmzi məna qazanır. Şairin "Oğlum Təbrizə", "Səsin gəlsin, Təbrizim", "Xudafərin körpüsü", "Yaşasın həyat", "Təbrizli Şəhriyar yazır" və s. kimi şeirləri məhz Təbriz mövzusuna həsr edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, şair Araz, Təbriz nisgilini təkcə lirik şeirlərində deyil, "Təbrizli şairin düşüncələri", "İki qardaşın söhbəti", "O gün gələcək" və s. kimi poemalarında da geniş şəkildə əks etdirmişdir.

Araz, Təbriz şair üçün bir tarix, yaddaş, xalq müsibətlərinin canlı şahidi kimi ədəbiyyata gətirilir. Nəticədə X. Rzanın Araz, Təbriz ağrılarından keçən şeirlərində "insan və təbiət", "varlıq və ölüm", "şəxsiyyət və güc" kimi mövzular bir araya gəlməklə düşüncə poeziyasına çevrilir.

## 2. X.R.Ulutürk poeziyasında tarixi şəxsiyyətlər və azadlıq mücadiləsi

Güney Azərbaycan ağrılarının şeirdə geniş şəkildə işlədilməsi həm də onun övladları, tarixi şəxsiyyətləri, inqilabçı simaları ilə X.R.Ulutürk poeziyasında yer alır. Şair şeirlərində tez-tez Səttarxanı (*"Sənin cavabın"*), Xiyabanini (*"Göylərdən gələn kişi", "Baş girləyən"*), şair Səhəndi (*"İki fəslin ayrıcında"*), Təbrizin haqq səsi saydığı Söhrab Tahiri xatırladır, onların qılınc, söz mübarizəsinin kəskinliyini oxucuya aşılayır. X.R.Ulutürk bu tarixi şəxsiyyətləri, xüsusilə Səttarxan və Xiyabaninin adını şeirlərində tez-tez işlətməklə Vətən üçün çırpınan fədailərin ümumiləşdirilmiş bir obrazını yaratmışdır. Hələ keçən əsrin əvvəllərində Təbrizdə fədailərin müqavimətini qırmağa çalışan şah qoşunlarına qarşı Səttarxan, Bağır xanın simasında milli qüvvələrin mübarizəsi başlamış, hər iki Vətən fədaisi hiylə yolu ilə ələ keçirilib Səttarxan qətl edilmiş, Bağırxan isə sürgün olunmuşdur. Ardıcıl olaraq yeni siyasi mübarizənin önündə dayanan Xiyabani Milli hökuməti (1920-ci il, 23 iyun) yaratmış, qısa müddətdə də olsa, Azadistan Respublikasını elan etmişdir (5, s.101). Cənubi Azərbaycanın siyasi tarixində mühüm rol oynayan bu tarixi hadisələri ümumiləşdirən şair Səttarxan, Xiyabaninin obrazını şeirlərində məhz azadlıq, şərəfli ölüm üzərində simvollaşdırmışdır. Bu lirikada fərdin daxili dünyası, ruhu, həyat və ölüm məsələləri bilavasitə dünyanın pozulmuş nizamında şeirə gətirilir.

Digər bir tərəfdən, Azərbaycanın ölməz şairi Məmmədhüseyn Şəhriyarın obrazını şeirlərində canlandıran X.R.Ulutürk Araz, Vətən ağrılarını həm də bu dahi söz ustadının simasında ifadə etmişdir. M.H.Şəhriyar xalqın şairi, Vətəni Azərbaycanın "o tay", "bu tay" ağrılarını bütün yaradıcılığı boyu əks etdirən bir ziyalı, sənətkar olmaqla Cənub–Araz, Təbrizlə bağlı yazan şairlərin ağsaqqalı, ustadına çevrilmişdir. X.R.Ulutürk poeziyasında Araz adlı dərdini, duyğusunu, hisslərini həm də Şəhriyarın şair ruhu, dünyasından götürmüş, ona müraciətlə yazdığı şeirlərində Vətənin fədakar şairini Azərbaycanla birgə qəbul etmişdir. Onun *"Şəhriyarım"* adlı lirik şeirində Şəhriyarın yeni çıxan şeiri xəbərə çevrilib, sənətkarı, onun ailəsini, dostlarını duyğulandırır. Bu duyğuların içində şair yenə də dərdini dilləndirir:

*Dəniz-dəniz qan verdiniz,*
*Sürgünlərdə can verdiniz.*
*Gül əkdiniz, vay dərdiniz,*
*Körpəsi də fədakarım, İftixarım, Şəhriyarım!* (6, s. 31)

Şəhriyar X.R.Ulutürkün poeziyasında təkcə şair deyil, el-obanın, Vətəninin önündə gedən "duman içində qalan xalqın" yol göstərəni, təsəllisi, şairin özü üçün də "könlünün setarı", "sarı simidir". Şair bu düşüncələrində Şəhriyarı həm də bir komandan, əli silahlı qüvvələrin rəhbəri kimi tərənnüm edir:

*Təbrizimin ərənləri– Silahsız da səngər şiri.*
*Tankı yıxar tunc əlləri,*
*Təki əmr et, Şəhriyarım!*
*Fəndi, bəndi yıxım, yarım!* (6, s.31)

X.R.Ulutürk *"Gözün aydın Azərbaycan"* şeirində də müəllif ustadın Azərbaycana gəlişi xəbərini sevinc, qürur hissi ilə dilə gətirir, şairin özünü isə qəlbindən silinməyən dərdlərin içində tərənnüm edir:

*O tayda bir atəş, bir günəşdi o,*
*Arazın üstündən dalğın keçdi o.*
*Baxdı... gözlərilə nəhri içdi o,*
*Sərhədlər, məftillər tarimar gəlir (6, s.273).*

Şəhriyarı Təbriz, Vətən gözündə görən şair onun şeirlərinin zümzüməsini, odalovunu, həsrətini "Humayun", "Segah"ın üzərində cəmləyir, ədibin şeirlərini bu musiqinin ritm, guşələrində Təbrizi "dünyaya tanıdan setar" kimi obrazlaşdırır (6, s.274).

X.R.Ulutürkün Cənubi Azərbaycanla bağlı şeirlərində şair bəzən baş vermiş hadisələrə, yaşanan Vətən ağrılarına "küsmək", "qınamaq" kimi hiss, duyğularla yanaşmaqla oxucusunu düşündürür, bu küskünlük, qırğınlığın arxasındakı həqiqətləri düşünməyə vadar edir. Onun xalq şeiri üslubunun ənənələrinə bağlı yazdığı *"Tural balama laylay"* adlı şeirində uyutmaq istədiyi körpəyə zümzümə edən şair laylasına "Araz bizdən yaman küsüb" ağrısını da qoşması maraq doğurur:

*Qaşlarının arasında Araz adlı çay,*
*Araz bizdən yaman küsüb Yat, gülüm, lay-lay.* (6, s.729)

Bir körpənin yatması üçün oxunan laylanın dilində belə Araz ağrısını dilə gətirmək əslində X.R.Ulutürk kimi bir şairin arzusu, istəyi idi. Keçmişini unutmamaq, hələ bələkdəykən bu ruhu Vətən övladlarına aşılamaq istəyindən doğan şeirdə Arazın küskünlüyü bəlli olsa da, onu yenidən nağıl dilində ifadə etmək bir daha şairin vətəndaşlıq mövqeyini əks etdirir. Eyni yanaşmanı – təbliği biz şairin övladlarına verdiyi öyüd, nəsihətlərdə də müşahidə edirik. "X.Rzanın poeziyasında təbliği motivlər də vətəndaşlıq qayəsindən, Azərbaycan sevgi duyğusundan yaranırdı. Onun oğlu Təbrizə xitabən yazılmış şeirlərində bu motiv daha qabarıq nəzərə çarpır. Elə bil, müdrik bir ağsaqqal, yaxud əsgərlərini döyüşə hazırlayan bir sərkərdə döyüşdən, vuruşdan qabaq öyüd-nəsihət verir, onları cəsarətlə, hünərvər olmağa səsləyir" (1, s.61).

X.R.Ulutürk poeziyasında Azərbaycan millilәri, fədailərinin cərgəsində Səhənd də xatırlanır, şairin həyatı, mübarizəsi, üsyankar ruhu onun duyğularında təəssüf hissi, həsrətlə dilə gətirilir:

*Silkəyir Təbrizi qeyrət, ləyaqət,*
*Dəmir addımına göz qoyuram mən.*
*Nə üçün tez getdi ağ saçlı Səhənd?*
*Səhəndi az qala qınayıram mən.* (6, s.40)

Bulud Qaraçoğlu Səhəndin taleyi də şair X.R.Ulutürkün taleyinə bənzəyirdi, hər iki şair sürgün həyatı yaşamış, zindanlara salınmış, istiqlal, mübarizə dolu əsərlərini də burada qələmə almışdılar. Milli hökumətin süqutundan sonra bir çox günahsız insanlar kimi həbs edilən Səhənd *"Araz"* və *"Xatirə"* mənzumələrində öz siyasi mövqeyini açıqlayır, Vətənin dərdlərini – məhv olmuş arzularını dilə gətirir. "Zindanların qaranlıq, soyuq künclərində yaranmış Səhənd poeziyası öz işığı, hərarəti ilə bu poeziyanın oddan, atəşdən yaranıb azadlıq eşqilə yaşadığını sübut edirdi" (2, s. 214). X.R.Ulutürkün *"İki fəslin ayrıcında"* şeirində "ağ saçlı Səhənd"i axtarması, onu qınaması da bir vətənpərvər, fədainin mübarizədən uzaqlaşması, itkisindən doğan şair hiddətinə bağlıdır.

X.R.Ulutürk xalqının tarixi, keçmişi, adət-ənənələri, bütövlükdə maddi və mənəvi irsinə yaxından bələd olan, onu qoruyan, ona sahib çıxan el şairi idi. Bu baxımdan ədibin yaradıcılığında folklor ədəbiyyatı, folklor sənətindən gələn motiv, obraz, süjetlər xüsusilə geniş yer tutmuşdur. Şair məlum xalq əfsanə, rəvayətləri, nağıl obraz, personajlarını və s. təkcə şifahi yaradıcılığın nümunəsi olaraq poeziyasına gətirməmiş, həm də bu ilkin qaynaqlardan yaradıcı şəkildə istifadə etmişdir. Təsadüfi deyildir ki, ədib *"Apardı sellər Saranı"* rəvayətini eyni kontekstdə ayrılıq, itkini salan zalımların simasında ümumiləşdirmişdir. Sara, bir el qızının uğursuz taleyini şair əfsanələrdə itib-batan bir çayın, selin faciəsində deyil, daha dərin, ümumiləşdirici mənada tarixin qan yaddaşına bağlayaraq məlum əfsanəyə dərin, fəlsəfi məna vermişdir. Başqa sözlə desək, X.R.Ulutürkün poeziyasında Cənubi Azərbaycan mövzusu xalq dilində dolaşan məlum əfsanə, rəvayətlərin uydurma həqiqətlərinin arxasında gizlənənlər şair məramında incə bir işarə ilə oxucuya aşılanır. Akademik Bəkir Nəbiyev şairin *"Apardı sellər Saranı"* xalq mahnısının məzmununa orijinal yanaşmasını diqqətdə saxlayaraq yazır:

*Yox, bunu görməyin Araz çayından,*
*Kim deyir Saranı sellər apardı?*
*Şahənşah bağından, Qış sarayından*
*Yurduma uzanan əllər apardı.*

Xalq mahnısından mütəəssir olmuş oxucunu şair məhz bu kəskin dönüşlə matəmli duyğular, faciəli fikirlər axarından ayırır, əsərinin dərin ictimai məzmun xalısının ilk ilmələrini vurmuş olur" (4, s.105).

X.R.Ulutürk Cənubi Azərbaycanla bağlı yazdığı şeirlərində xalqın keçmişi, tarixi mübarizəsini canlandırdığı kimi, bu günü, gələcəyinin də mənzərəsini cızmaqdan çəkinmir. Təbrizini "dumanlı", Zəncanını "çənli" görsə də, onun amalı, məqsədi parçalanmış Vətənini bütöv görməkdir:

*Dinləyin, dinləyin, mən bir kamanam,*
*Şərqin sinəsindən qopan fəğanam.*
*Uzaq əsrlərin dərinliyindən*
*Sabaha üz qoyan sonsuz karvanam.*
*Ovcu qabar-qabar, ciyəri təşnə,*
*Günəşi ardınca çəkən sarbanam.*
*Bu qoca dünyanın tən ortasında*
*Bülbülü susmayan bir gülüstanam.*

*Sovqatı, bəxşişi açıq sinidə,*
*Ağzının sonuncu tikəsini də*
*Dosta bağışlayan, düşmənə verən*
*Dumanlı Təbrizəm, çənli Zəncanam.*
*Hər şeyi alınıb tükənsə belə,*
*Eşqi tükənməyən Azərbaycanam!*

*"Mən–Azərbaycanam!"* şeirindən çıxış edən X.R.Ulutürk Vətəninin keçmişi, tarixi, xalqının qonaqpərvərliyi, milli adət-ənənələrinin zənginliyi, özünəməxsus stereotiplərini kiçik bir şeir parçasında cəmləşdirərək, əzəli, əbədi türk yurdunun həqiqətlərini vətəndaş-şair şüarına çevirir. Bu baxımdan X.R.Ulutürk yaradıcılığında Vətənini Güneyli-Quzeyli, böyük Şərqin mədəniyyət, inqilablar beşiyində tərənnüm etməklə böyük tarixi yolda uğur və müvəffəqiyyətlərin sirrini milli birlik, azadlıq və mücadilədə görür.

**Nəticə**

Cənubi Azərbaycan mövzusu ədəbiyyatımızda həmişə aktual olmuş, lakin siyasi səbəblərdən dolayı uzun illər bu hadisələrə geniş şəkildə tarixi həqiqətlərin axtarışında yanaşmaq və təbliğ etmək məsələləri arxa planda saxlanılmışdır. X.R.Ulutürk poeziyasında Cənubi Azərbaycan mövzusuna təkrar-təkrar müraciət etməsi şairin həyat, fəaliyyəti, seçdiyi yol, mübarizəsi və s. ilə bağlı olaraq formalaşmışdır. İlk olaraq bu yanaşma onun Azərbaycanı bütöv, torpaqların birliyində görmək arzusundan irəli gəlirdi. Yaradıcılığının ilk illərində Cənub mövzusu şairi müəyyən mənada gözəllik və romantika üzərindən cəlb etsə də, zamanla daha dərin məna qazanaraq siyasi motivlərdə fikir, düşüncənin obyektində saxlamışdır. Cənubi Azərbaycan mövzusu Güneydə baş verən hadisələrlə yanaşı, ədəbi-mədəni əlaqələrdə də şairi ilhamlandırmış, onun yaradıcılıq imkanlarını genişləndirmişdir. Müstəqilliyin ədəbiyyat, Azərbaycan tənqidinə gətirdiyi sərbəst fikir, düşüncə azadlığı nəticə etibarilə bu mövzuda əsərlərin yazılması və təhlil edilməsini sürətləndirmiş, bu ruhda yazan şairlərimiz, xüsusilə X.R.Ulutürkün yaradıcılığına marağı artırmışdır. X.R.Ulutürkün poeziyasında Cənub Azərbaycan mövzusu həm tarixi hadisələri, tarixi şəxsiyyətləri, həm də söz ustaları və onların taleyi, mübarizəsi fonunda sənətə gətirilir. Şair ruhu bəzən bədbin, yaralı duyğularda çırpınaraq Araz ağrıları, Təbriz dərdinə qol-qanad verir, bəzənsə şair qələməsinin kəskinliyində inqilabi ruh qazanır. X.R.Ulutürk Arazı, Təbrizi, Savalanı həm ağrı, nisgilli dillə şeirlərində tərənnüm edir, həm də daim mübarizədə ərən dünyasının kişilik, mərdlik nümunəsində fəxr, iftixarla tanıdır. Güney Azərbaycanın tanınmış ədib, sənətkarları da onun lirikasında Vətən harayına qoşulan, mübarizə yolunda illərlə vuruşub, yorulmayan inqilabi ruhlu el oğulları olaraq obrazlaşdırılır. Şairin yaradıcılığında Cənubi Azərbaycan mövzusu eləcə də xalq dilinin zənginliyi, xalq məişətinin hadisə, detallarında bütövlük qazanır, milli məzmun kəsb edir. Mayası azadlıq, Vətən sevgisi, mübarizə əzmi üzərində qurulan bu poeziya təkcə X.R.Ulutürk yaradıcılığının deyil, ümumiyyətlə Azərbaycan şeirinin Cənubi Azərbaycan dünyasının əbədi xəzinəsi, mirasıdır. Hər şeydən öncə bu poeziya yarandığı gündən bilavasitə xalq həyatı, mübarizəsinə bağlı formalaşması baxımından tarixi səciyyə daşıyır. Sənətin də bir tarix olduğunu nəzərə alsaq, bu dövrün hadisələrinin poeziyada X.R.Ulutürk lirikasında araşdırılması daha ümumiləşdirici mahiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Axundlu A. İstiqlal şairləri. Bakı: Elm, 1998, 128 s.
2. Əliqızı A., Zamanzadə D. Ədəbiyyatımızın aktual problemləri(ədəbi düşüncələr) Bakı: Azərnəşr, 2010, 316 s.

3. Əsgərli Ə. Xəlil Rza Ulutürkün poetikası. Bakı: Aspoliqraf, 2012, 494 s.
4. Nəbiyev B. İstiqlal şairi: Xəlil Rza Ulutürkün həyatı, mübarizəsi və yaradıcılığı. Bakı: Elm, 2001, 348 s.
5. Polad Ə. Mədəniyyətlərin beşiyi: Təbriz. İstanbul: Novruz, 2015, 855 s.
6. Ulutürk X.R. Gündəliklər. Bakı: Yazıçı, 2017, 821 s.
7. Ulutürk X.R. Mən onsuz da əbədiyəm. Bakı: Gənclik, 2003, 1056 s.
8. https://anl.az/down/meqale/edebiyyat/edebiyyat_sentyabr2009/89631.ht.

***Резюме***

***Севинч Каримзаде***

***Тема Южного Азербайджана в поэзии Х.Р. Улутюрка***

Поэзия Х.Р.Улутюрка, одной из выдающихся фигур азербайджанской поэзии, представляет собой богатое наследие, построенное на темах гражданственности, любви, целостности и неделимости Родины и других важных идеалов. Творчество поэта, связанное с концепцией азербайджанства в значительной степени ориентировано на тему Южного Азербайджана, и его стихи, рожденные в духе стремления к независимости и свободе, всегда остаются актуальными. В первые годы своего творчества, начиная с 1960-х годов, включая период движения на площади, поэзия Х.Р.Улутюрка тесно связана с темой Южного Азербайджана. В его стихах проблема Южного Азербайджана раскрывается через историческую призму, с акцентом на борьбу и революционные процессы, которые рассматриваются как неотъемлемая часть Ветера, его неразрывного фрагмента. Тема Южного Азербайджана в творчестве поэта впервые появляется через персонализацию географических наименований, таких как Араз, Тебриз, Савалан, Зенджан и других, а также через раскрытие политической роли этих исторических мест в борьбе. Особенно важным является акцент на Тебризе, который занимает центральное место в политических и социальных процессах, а также на значении политических движений, усиливавшихся в этом городе с начала XX века, что становится отдельной темой в лирике поэта. Истина о Южном Азербайджане в поэзии поэта также отражает фигуры таких революционеров, как Саттархан, Хиябани, а также поэтов М.Шахрияра, Сахенда, С.Тахира, которые через свою деятельность и личность становятся обобщенными символами борьбы и революции, а также важными элементами поэтического сознания. Широко раскрытая тема неделимости Родины, ее вечного единства, находит отражение в стихах поэта, который, обращаясь к проблемам Южного Азербайджана, не только поднимает вопросы общественной борьбы и революции, но и акцентирует внимание на защите национального культурного наследия, фольклора, литературы и языка, которые подвергаются различным формам давления. В этих стихах выражается мнение поэта, который, будучи сторонником независимости, заявляет свою позицию по этим вопросам. Кроме того, в стихах Х.Р.Улутюрка национальное наследие и примеры народной литературы играют важную роль. Песни, легенды, сказания, связываясь с темой Южного Азербайджана, становятся средствами передачи исторической памяти народа, а также используются для освещения трагедии разделенных земель. Стихи поэта, охватывающие такие различные темы, как народные колыбельные песни, наставления к сыновьям, любовь к красотам природы, наш язык и фамилия, всегда связаны с темой Южного Азербайджана, что делает эту тему не только основной, но и центральной в творчестве поэта, оставшуюся актуальной и важной на протяжении всей его литературной карьеры. Кроме того, в стихах Х.Р.Улутюрка национальное наследие и примеры народной литературы играют важную роль. Песни, легенды, сказания, связываясь с темой Южного Азербайджана, становятся средствами передачи исторической памяти народа, а также используются для освещения трагедии разделенных земель. Стихи поэта, охватывающие такие различные темы, как народные колыбельные песни, наставления к сыновьям, любовь к красотам природы, наш язык и фамилия, всегда связаны с темой Южного Азербайджана, что делает эту тему не только основной, но и центральной в творчестве поэта, оставшуюся актуальной и важной на протяжении всей его литературной карьеры.

**Ключевые слова:** *Южный Азербайджан, Х.Р.Улутюрк, поэзия, Родина, независимость, поэт, азербайджанский национализм, Араз, Тебриз, Шахрияр, фольклор, поэтическое сознание, национальная память.*

***Summary***

***Sevinc Kerimzade***

***The Theme of Southern Azerbaijan in the Poetry of K.R. Uluturk***

X.R.Ulutürk, one of the prominent figures in Azerbaijani poetry, has created a rich legacy centered on themes such as citizenship, love, the integrity and indivisibility of the homeland, and more. His create-vity, rooted in Azerbaijani nationalism, has given considerable emphasis to the theme of South Azerbai-jan, with his works focused on ideas of independence and freedom, remaining relevant throughout time.

From the early years of his creative career, starting in the 1960s, including the period of the national movement, X.R.Ulutürk's works have been closely intertwined with the theme of the South. In his poetry, the opportunities of poetry and its artistic-poetic content have been employed to trace the historical perspective of the South Azerbaijan issue. This problem has been continuously reflected in his works, representing the struggle and revolutions of the region as part of the larger homeland, which is constantly at war.The poet first brings the theme of South Azerbaijan into his poetry by personifying place names such as Araz, Tabriz, Savalan, Zanjan, etc., and examining the political significance of these historical locations in the struggle for political movements. More specifically, the city of Tabriz has stood out in his works, particularly its role in the political processes, and the growing political movements starting from the early 20th century have become a central subject in his poetry.The realities of South Azerbaijan in the poet's works are also generalized in the figures of revolutionaries such as Sattar Khan, Xiyabani, as well as the poets and intellectuals like M. Shahrayar, Sahand, and S. Tahir. These figures symbolize the broader political and cultural struggles in the South. Through his poetry, Ulutürk has explored not only the struggles and battles of the region but also the importance of preserving national cultural heritage, folklore, literature, and language, which were under pressure and facing challenges. In his works, he reflects his position as an artist and an advocate for independence.In his poetry, X.R. Ulutürk also relates the folkloric elements and the cultural heritage of the Azerbaijani people, including lullabies, legends, and narratives, to the theme of South Azerbaijan. By doing so, he has used these motifs to portray the tragic division of the land, bringing this theme into art through new methods. The poet's works, whether focused on lullabies, advice to sons, the beauty of nature, the language, or surnames, all trace back to the central theme of South Azerbaijan, making it the underlying motif that runs throughout his entire body of work.

**Key words:** *South Azerbaijan, X.R. Ulutürk, poetry, homeland, independence, poet, Azerbaijani nationalism, Araz, Tabriz, Shahrayar, folklore, poetic thought, national memory***.**

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.